**UOT 373.2**

***İltifat Həmid oğlu Bağırov***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Cəlilabad filialının müəllimi*

## UŞAĞIN MƏKTƏBƏ HAZIRLIĞI VƏ ONUN APARILMASI YOLLARI

***Ильтифат Гамид оглы Багиров***
*преподаватель Джалилабадского филиала Азербайджанского*
*Государственного Педагогического Университета*

## ПОДГОТОВКА РЕБЕНКА К ШКОЛЕ И СПОСОБЫ ЕЕ ПРОВЕДЕНИЯ

***Iltifat Hamid Baghirov***
*lecturer at the Jalilabad branch of the Azerbaijan State Pedagogical University*

## PREPARATION OF THE CHILD FOR SCHOOL AND WAYS OF ITS CARRYING OUT

**Xülasə.** Kiçikyaşlı uşaqların məktəbdə yaxşı oxumaları onların məktəb təliminə hazırlığından asılıdır. Uşaq məktəbə getməzdən qabaq məktəb təliminə nə qədər yaxşı hazır olarsa, bir o qədər də məktəbdə yaxşı oxuya bilər. Bir çox müəllim və tərbiyəçilər vardır ki, onlar yanlış olaraq bu hazırlığı hərflərin öyrədilməsində görürlər. Onlara elə gəlir ki, uşaq məktəbə gedəndə oxuyub yaza bilməlidir. Lakin onlar unudurlar ki, bu əməliyyat məktəbin işidir.

***Açar sözlər:*** *uşaq, məktəbəqədər müəssisə, ibtidai sinif, məktəbə hazırlıq, psixoloji inkişaf, idrakı, inkişaf, fiziki inkişaf*

**Резюме.** Хорошая успеваемость детей младшего возраста в школе зависит от их готовности к школьному обучению. Чем лучше ребенок подготовлен к школьному обучению до поступления в школу, тем лучше он может учиться в школе. Имеется много учителей и репетиторов, которые ошибочно видят эту подготовку в обучении буквам. Им кажется, что когда ребенок идет в школу, он должен уметь читать и писать. Но они забывают, что это прямая обязанность школы.

***Ключевые слова:*** *ребенок, дошкольное учреждение, начальный класс, подготовка к школе, психологическое развитие, познание, развитие, физическое развитие*

**Summary.** Good academic performance of young children in school depends on their readiness for school. The better a child is prepared for school before entering school, the better he can study at school. There are many teachers and tutors who mistakenly see this training in teaching letters. They think that when a child goes to school, he should be able to read and write. But they forget that this operation is a school matter.

***Key word:*** *child, preschool, primary school, preparation for school, psychological development, cognition, development, physical devolopment*

Kiçikyaşlı uşaqların məktəbdə yaxşı oxumaları onların məktəb təliminə hazırlığından asılıdır. Uşaq məktəbə getməzdən qabaq məktəb təliminə nə qədər yaxşı hazır olarsa, bir o qədər də məktəbdə yaxşı oxuya bilər.

"Təcrübə göstərir ki, çox vaxt valideynlərin əksəriyyəti məktəbə hazırlıq işini uşağın savad təliminə hazırlığı ilə məhdudlaşdırırlar. Onlar beşyaşlılara oxumaq, yazmaq, hesablamağı öyrətməyə çalışırlar. Əgər uşaq hecalarla oxumağı, çap hərflərilə bir neçə sözü yazmağı (hərfburaxma və ya yerdəyişmə ilə olsa da) bacarırsa, tapmaca, yanıltmac bilir, yüzədək sayırsa, hesab edirlər ki, məktəbdə təhsil almağa hazırdır" [2, s. 116].

Uşağı məktəbə hazırlamaq üçün birinci növbədə onun fiziki cəhətdən sağlam olmasına fikir verilməlidir. Sağlam bədəndə sağlam ruh olar. Uşaq nə qədər sağlam olarsa, bir o qədər hər bir məlumatı yaxşı mənimsəyər.

Uşağa sağlam olmaq üçün nə etmək lazım olduğunu başa salmaq lazımdır. "Yeməkdən əvvəl əlləri yumaq. Təmiz havada gəzmək. Yemək zamanı danışmamaq. Özünə aid bütün əşyaları təmiz saxlamaq. Özünü soyuq və istidən qorumaq. Əlləri və paltarlarını təmiz saxlamaq və s.".

İkinci, uşaqda məktəbə qarşı hörmət və məhəbbət hissi yaratmaq. Bunun üçün kiçik həcmli nağıl və şeirlərdən istifadə etmək lazımdır. Bu nağıl və şeirlərdə məktəbə qarşı uşaqlarda məhəbbətdən, istəklərdən danışılmalıdır. Elə etmək lazımdır ki, uşaq məktəbi özünə ən yaxın bir yer kimi başa düşsün.

Üçüncü, uşağa müəllimi sevdirmək, müəllimin onun yaxın adamı olduğunu başa salmaq lazımdır. Uşaq hiss etməlidir ki, müəllim onun ən yaxın adamıdır. Bunlar söhbət, oyun və nağıllar vasitəsi ilə uşaqlara çatdırılmalıdır. Uşağı məktəbə aparıb müəllimlə də görüşdürmək olar. Elə etmək lazımdır ki, uşaq müəllimlə söhbət etsin və müəllim onun xoşuna gəlsin və s.

Dördüncü, dərs ləvazimatları haqqında, onların qorunması, saxlanılması və istifadəsi barədə məlumatları uşağa mənimsətmək lazımdır. Ona görə ki, uşaqlar onlardan istifadəni başa düşməli, onların xeyrini yaxşı bilməli və onları qorumalıdır. Onlarsız yaxşı oxuya bilməz.

Müşahidələr və araşdırmalar göstərir ki, hazırda istər şəhər, istərsə də kənd məktəblərinin əksəriyyətində müəllimlər uşaqların məktəbə hansı hazırlıqla gəlmələrindən asılı olmayaraq, onlarla fəaliyyətə sıfırdan başlamağı faydalı hesab edirlər. Onlar uşaqları tam hazırlıqsız, heç şey bilməyənlər kimi qəbul edirlər. Uşağın məktəbə gələnədək uşaq bağçasında, ailədə öyrəndikləri, ətraf aləm üzərində müşahidə əsasında sərbəst əldə etdikləri nəzərə alınmır. Hamıya eyni səviyyəli fərd kimi baxan müəllim onlarla "bir dildə" danışmaqla öz işini asanlaşdırmağa çalışır. Nəticədə təlim az-çox hazırlıqlı uşaqlar üçün gözləmədikləri, asan, mənasız, cansıxıcı bir prosesə çevrilir. Onlar müəllimin dediklərini dinləmir, "onsuz da bilirəm" deyə laqeydlik göstərir, təlim əməyinə alışmır, geridəqalanlar sırasına keçirlər.

Məktəbəqədər yaşlı uşağın məktəbə getmək üçün psixoloji hazırlığına nail olmaq uşaq bağçasının ən mühüm praktik vəzifəsidir. Təhsilin bu mərhələləri arasında fərqi dərk etmək və uşaqların təlimə psixoloji-pedaqoji hazırlığı üzərində düşünmək lazımdır.

Uşağın psixoloji cəhətdən inkişafı onun məktəbə hazırlığını xəbər verən xüsusi amildir. Uşaq nə qədər balaca olarsa, onun psixoloji hazırlığının öyrənilməsi və korrektə edilməsi o qədər xüsusi əhəmiyyət kəsb edir. Tədqiq etdiyimiz problem baxımından buna daha ciddi ehtiyac hiss olunur.

Uşağın psixi inkişafı yaşlılar tərəfindən təsiri və yaxın adamların fasiləsiz verdikləri bilik, bacarıq və vərdişlərə yiyələnmə nəticəsində mümkün olur. Vaxt keçdikcə kiçikyaşlı uşağın hazırlığı artır. Yaşlılar onlara şəkil çəkməyi, nə isə düzəltməyi də öyrədirlər. Uşaqların müstəqilliyinə tələblər artır. Uşaqda yalnız hərəki deyil, həm də sensor, nitq, intellektual vərdişlərin, nəhayət, fəaliyyətin növü və məzmunu çətinləşdirilir.

Məktəbə psixoloji hazırlıq uşaqların fərdi xüsusiyyətlərindən asılıdır. Anadangəlmə iki uşağın bioloji inkişafı, sağlamlıq səviyyəsi, psixikası eyni olmadığından onların hər birinə fərdi yanaşmaq tələb olunur. Uşaqların sakit və ya həyəcanlı, qapalı və ya çevik, oynaq, hərəkətə meylli, şən və ya qaradinməz, ünsiyyətə meyilli və ya ünsiyyətdən qaçan və s. keyfiyyətlərə malik olmasından asılı olaraq onların məktəbə hazırlıqlarında fərqlər özünü göstərir.

Məktəbəqədər və kiçik məktəb yaşı, D.B. Elkoninin dediyinə görə insanın inkişafının "uşaqlıq" adlanan qərinəsidir. Məktəbəqədər dövr uşağı kiçik məktəb yaşına keçməyə hazırlayır. "Məktəbəqədər və kiçik məktəb yaşlı uşaqların psixologiyası bir çox ümumi cəhətlərə malikdir.

– yaşlıların nüfuzuna etibarlı tabelilik;

– hər hansı yeniliyi qavramağın yüksəkliyi;

– nə ilə qarşılaşırsa, sadəlövh oyun münasibəti;

– ətraf aləmin obrazlı (obrazlı yaddaş, obrazlı təfəkkür) şəkildə dərk olunması" [4, s.142].

Məktəb təliminə intellektual hazırlığın göstəricilərinin komponentləri aşağıdakılardır:

– *Obrazlı komponent*. Bu, əşyanın əlamətlərinin çoxsaylı xassələrini; obrazlılıq əsasında görmə yaddaşı; qavramaq, əşya və ya hadisə haqqında malik olduğu təsəvvürləri ümumiləş-

dirmək qabiliyyəti; müqayisə, təhlil və tərkib kimi əqli əməliyyatların inkişafı; evristik təfəkkürdür.

– *Verbal komponent.* Bu, əşyaların müxtəlif xassələrini saymaq, onlardan mühüm olanları ayırmaq; nitq əsasında eşitmə yaddaşı; tanış, yaxud sərbəst seçilmiş terminlərin köməyi ilə eynitipli anlayışlar çoxluğunu ümumiləşdirmək; fikri əməliyyatın inkişafı, təsnifetmə, seriyalaşdırma, təhlil, təfəkkürün tənqidliyi qabiliyyətidir.

Məşğələ prosesində tərbiyəçi uşağın məktəb təliminə intellektual hazırlığını inkişaf etdirməklə tam dəyərli idrak prosesini yaratmış olur. Məktəbəqədər yaşlı uşaqların intellektual hazırlığı, əqli inkişafı istiqamətində görülən işlərdə məktəblə varisliyin gözlənməsi son dərəcə vacibdir. Uzun illərin təcrübəsi göstərir ki, müəllimlər və tərbiyəçilərin heç də hamısı uşaqların əqli inkişaf üzrə işlərin yerinə yetirilməsində məktəbə hazırlanmasında vahid məxrəcə gələ bilmirlər. Qabaqcıl uşaq bağçaları uşaqların məktəbə hazırlanmalarına onların fiziki, əqli, estetik, mənəvi hazırlığı və tədris əməyində zəruri vərdişlərin biliyə, məktəbə, oxumağa möhkəm marağın formalaşması, onların hərtərəfli inkişafı kimi baxırlar. Məktəbəqədər pedaqogika da təsdiq edir ki, uşağın intellektual inkişafı onun məktəbə yaxşı hazırlanmasını təmin edir.

İntellektual hazırlıq probleminin elmi əsaslarını bilməyən tərbiyəçilər uşağı məktəbə hazırlayarkən ona oxumağı, yazmağı, hesablamağı, başqa sözlə, I sinfin proqramının bir hissəsini bağçaya keçirməyi tələb edirlər. Onların bir qismi çox vaxt bu işləri valideynlərə həvalə edirlər. Məktəbəqədər müəssisələrdə məktəb proqramının öyrədilməsi məktəbəqədər təhsilin vəzifələrinə ziddir.

"İntellektual hazırlıq uşağın nitqinə ciddi tələblər verir: nitq səslərini düzgün tələffüz etmək, lüğət ehtiyatını zənginləşdirmək, rabitəli (dialoji, monoloji) nitqə yiyələnmək, eşitdiyinin məzmununu nəql etmək; yapma, quraşdırma, rəsmetmə, sayma, hesablama, əqli fəaliyyət tələb edən oyunlarda iştiraketmə, ətraf aləm üzərində müşahidə aparma, gördüklərini şərh etmə, plastilin, çöplərlə (sonralar karandaşla) bir neçə hərfin çap şəklini yazma və s." [1, s. 68].

Bütün bu işlərdən sonra uşaqda yaddaş qabiliyyətini formalaşdırmaq lazımdır. Elə etmək lazımdır ki, uşaq hər hansı bir işi yadda saxlaya bilsin. Bunun formalaşması üçün oyun və əyləncələrdən, didaktik materiallardan və s. istifadə oluna bilər:

– Lövhədə bir neçə müxtəlif (3-4 ədəd) xırda şəkillər asmaq, sonra həmin şəklin birini götürərək hansının götürüldüyünü soruşmaq və s.;

– Bir neçə (3-4) söz deyib, həmin sözləri təkrar etdirmək;

– Hər hansı bir şəkli göstərib, sonra həmin şəkli 2-3 hissəyə ayırmaq və şəklin birləşdirilməsini tapşırmaq və s.;

– Hazır didaktik materiallardan istifadə etməklə hər hansı bir əşya hazırlamaq.

Bütün bunlar uşaqda yaddaş qabiliyyətini formalaşdırır. Yaddaş qabiliyyətinin möhkəm olması məktəbdə ən lazımlı hisslərdən biridir.

Uşaqda dinləmə, diqqətlə qulaq asma, danışan adama hörmət etmə, danışanın sözünü kəsməmək və s. kimi hərəkətləri də aşılamaq lazımdır. Bunun üçün nağıl və şeirlərin köməyindən istifadə etmək olar. Elə etmək lazımdır ki, uşaq istər müəllim, istərsə də yoldaşları olsun, onları dinləmək bacarığına malik olsunlar.

Uşaqda yaşıdlarına qarşı gözəl münasibət aşılamaq lazımdır. Uşaqda öz fikrini ifadəetmə bacarıqları yaratmaq lazımdır. Onlara hər bir şeydən düzgün istifadəni də başa salmaq lazımdır.

Ətraf aləm haqqında, onun xeyri barədə, ondan istifadə və ona qulluq barədə uşağa məlumatlar verilməli və aşılanmalıdır. Onda uşaqda ətraf aləm haqqında məlumatlar öz xeyrini verə bilər. Yəni uşaq ətraf aləmə pis münasibət bəsləməz. Uşağın əxlaqı, düşüncəsi, danışıq tərzi, böyüyə hörmət, kiçikyaşlı uşaqlara qayğı, vətənə məhəbbət və s. hisslər məktəbəqədər yaşlı uşaqlara aşılanmalı və bunların bünövrəsi möhkəm qoyulmalıdır.

Doğrudan da sadalanan bu anlayışlar uşağa məktəbə hazırlıq zamanı yaxşı və uşağın başa düşə biləcəyi tərzdə çatdırılarsa və uşaq onları qəbul etməyi bacarırsa, onda o məktəbə yaxşı hazırlanmış olar. Belə uşaqlar məktəb vaxtı heç vaxt geridə qala bilməz. Müəllimin bütün dediklərini yaxşı başa düşər və qabaqcıl şagirdlərdən olar. Həqiqətən uşağın məktəbdə yaxşı oxuması onun məktəbə hazırlığından çox asılıdır.

Uşağın da məktəbdə yaxşı oxuması onun məktəbə hazırlığından asılıdır. Gəlin, uşaqlarımızı məktəbə günün tələbləri səviyyəsində hazırlayaq. Onlar bizim gələcəyimizdir. Gələcəyi-

miz olan uşaqların normal inkişafını hamımız düşünməliyik.

**Problemin aktuallığı.** Məktəbə daxil olmaq uşağın həyatında əhəmiyyətli hadisədir. O, inkişafın sosial situasiyasını köklü şəkildə dəyişir və şəxsiyyətin inkişafının perspektivini müəyyən edir. Bu dövr aparıcı fəaliyyətin əvəz olunması yeni rolunun – şagird rolunun meydana çıxması dövrüdür.

**Problemin elmi yeniliyi.** Məktəbəhazırlıq yalnız təlimedici deyil, inkişafetdirici xarakter daşıyır. Məktəbə hazırlıq prosesində varisliyin nəzərə alınması I sinfi təkrarlamağa yol vermir. Varisliyin gözlənməsindən məqsəd məktəbəqədər yaşlı uşağı ümumən məktəb təhsili sisteminə hazırlamaqdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali məktəb və məktəbəqədər tərbiyə müəssisələrində tədris prosesinin təşkili prosesində istifadə etmək olar.

**Ədəbiyyat:**

1. Kərimov, Y.Ş. Uşağın məktəbə hazırlanmasının ümumpedaqoji məsələləri. – Bakı: Maarif, – 1980.
2. Məmmədova, A. Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması. – Bakı, – 2007, – 160 s.
3. Островская, Л.Ф. Педагогические ситуации в семейном воспитании дошколников. – М.: Просвешение, – 1990, с. 157
4. Эльконин, Д.Б.. Избранные психологические труды. – Москва: Педагогика, –1989, – 301 с.

**E-mail:** bagirov.iltifat@mail.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **L.K. Kazımova,**
*ped.ü. fəls.dok.* **S.Ə. Rəhimova**
**Redaksiyaya daxil olub:** 14.04.2022.